# Azərbaycanla Butan arasında çoxtərəfli formatlarda əməkdaşlıq məsələləri müzakirə olunub

**Azərbaycan Respublikasının iqamətgahı Nyu-Dehli şəhərində olmaqla, eyni zamanda Butan Krallığına təyin olunmuş səfiri Elçin Hüseynli etimadnaməsini Butan Kralı Ciqme Kxesar Namqyal Vanqçuka təqdim edib.**

Azərbaycanın Hindistandakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, mərasimdən sonra baş tutan qəbul zamanı Butan Kralı səfiri təyinat münasibətilə təbrik edib və fəaliyyətində uğurlar arzulayıb. O, ölkəsində həyata keçirilən islahatlar, biomüxtəlifliyin və ətraf mühitin mühafizəsi üzrə görülən işlər barədə məlumat verib.



Səfir Azərbaycanın bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyini deyib. O, noyabrın 12-13-də Bakıda keçiriləcək İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammitində iştirak məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Butan Kralına dəvət məktubunun ünvanlandığını diqqətə çatdırıb. Butana səfəri çərçivəsində səfir E.Hüseynli həmçinin ölkənin Baş naziri, xarici işlər və ticarət naziri, Milli Assambleyanın spikeri, Energetika və Təbii Sərvətlər Nazirliyinin katibi ilə görüşüb.

Görüşlər zamanı Azərbaycan ilə Butan arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq məsələləri müzakirə olunub, parlamentlərarası əlaqələr, təhsil, turizm, ətraf mühitin mühafizəsi, bərpaolunan enerji kimi sahələrdə əlaqələrin genişləndirilməsinə maraq ifadə olunub.

Həmsöhbətlər ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə təşəbbüslərini və hazırda iqlim dəyişikliyi üzrə qlobal səylərini alqışlayıblar. Azərbaycanın beynəlxalq təhsil proqramlarında Butan vətəndaşlarının iştirakı üçün yaradılan imkana görə minnətdarlıq ifadə ediblər.

Azərbaycan.- 2024.- 9 iyun, № 121.- S.7.